# İnteraktiv metodlar ali təhsil müəssisəsində pedaqoji innovasiya kimi

**Aytən Cəbiyeva**
*Bakı Qızlar Universitetinin baş müəllimi*
**E-mail:** ayten.mamedova.80@bk.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. G.V. Sultanova,
ped.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** təlimin interaktiv metodları, dialoq formasında keçirilən təlim, interaktivlik, interaktiv texnologiyalar

**Ключевые слова:** интерактивные методы обучения, диалоговое обучение, интерактивность, интерактивные технологии

**Key words:** interactive educative methods, dialog training, interactivity, interactive technologies

Ali təhsil sistemində baş verən dəyişikliklər, təhsilin innovativ şəxsiyyəti-inkişaf paradiqmasina doğru hərəkətlə, həyatın bütün sahələrində yaradıcı fəaliyyət üçün insanın intellektual-yaradıcı potensialının istifadə edilməsi zərurəti ilə şərtlənir.

Ali təhsil sahəsinin kompleks şəkildə dəyişdirilməsinin ən mühüm tərkib hissələrindən biri səriştəli yanaşmanın və məqbul vahidləri sisteminin mütləq şəkildə realizə edilməsi ilə ikisəviyyəli təhsil sistemінə keçiddir.

Ali təhsil pilləsinin dövlət təhsil standartlarının, normativ-hüquqi sənədlərin təhlili nəticəsində məlum olmuşdur ki, təhsil sisteminin belə keçidi özlüyündə təhsil prosesinə verilən tələblərin dəyişməsinə səbəb olacaqdır. Belə dəyişikliklərdən biri tələbələrin öyrədilməsi prosesində interaktiv təlim metodlarının istifadə edilməsi tələbi hesab oluna bilər.

İnteraktiv təlim metodları ali təhsil müəssisəsində tələbələrin peşə hazırlığının təkmilləşdirilməsinin ən mühüm vasitələrindən biridir. Belə olan halda müəllimin auditoriyada nəzəri biliklər verərək öz sahəsi üzrə səlahiyyətli olması kifayət etmir. Müasir tədris prosesinə bir az başqa cür yanaşma tələb olunur.

İnteraktiv metodlar (ingiliscə interaction-qarşılıqlı təsir, bir-birinə təsir etmə) – öyrənənlərin öz aralarında bir-birinə qarşılıqlı təsirinə əsaslanan təlim metodlarıdır.

İnteraktiv təlim — idrak fəaliyyətinin təşkilinin xüsusi forması, tələbələrin birgə fəaliyyəti formasında həyata keçirilən idrak, dərketmə üsuludur. Bütün iştirakçılar bir-biri ilə qarşılıqlı əlaqədə olur, informasiya mübadiləsini həyata keçirir, problemləri birgə həll edir, situasiyaları modelləşdirir, başqaların və özlərinin davranışlarını qiymətləndirir, problemlərin həll edilməsi üçün işgüzar əməkdaşlığın real atmosferinə daxil olurlar. Əsas məqsədlərdən biri tələbənin öz uğurunu, özünün intellektual tutarlılığını hiss etməsi üçün təlimin rahat, komfortlu şəraitini yaratmaqdan ibarətdir ki, bu da təlim prosesini özü-özlüyündə məhsuldar edir.

Tədris prosesi elə təşkil edilir ki, praktiki olaraq bütün təhsilalanlar idrak prosesinə cəlb olunur, bildikləri və haqqında fikirləşdikləri şeyləri başa düşmək və onlara reaksiya vermək imkanına malik olurlar. İnteraktiv metodların xüsusiyyəti — qarşılıqlı təsir subyektlərinin birgə istiqamətlənmiş fəallığının yüksək səviyyəsi, iştirakçıların emosional, mənəvi vəhdətidir. Məşğələlərdə interaktiv fəaliyyət beş əsas element üzərində fokuslanır. Bunlar pozitiv qarşılıqlı asılılıq, şəxsi məsuliyyət, yardım edən qarşılıqlı təsir, birgə iş vərdişləri və qruplarda

işdir.

Dərslərin ənənəvi keçirilmə formaları ilə müqayisədə interaktiv təlimdə müəllim ilə öyrədilənin qarşılıqlı əlaqəsi dəyişir: pedaqoqun fəallığı öz yerini öyrədilənlərin fəallığına verir, müəllimin vəzifəsi isə onların təşəbbüskarlığı üçün şərait yaratmaq olur.

İnteraktivlik nə iləsə (məsələn, kompüterlə) və ya kim iləsə (insanla) müsahibə, dialoq rejimində qarşılıqlı təsir göstərmə, yaxud olma qabiliyyəti deməkdir. Deməli, interaktiv təlim hər şeydən əvvəl, dialoji təlimdir və qarşılıqlı təsir dialoq çərçivəsində həyata keçirilir.

Dialoji təlim zamanı tələbələr tənqidi düşünməyi, mürəkkəb problemləri hadisə və halların, müvafiq informasiyanın təhlili əsasında həll etməyi, alternativ fikirləri götür-qoy etməyi, əsaslandırılmış qərarlar qəbul etməyi, müzakirələrdə iştirak etməyi, başqa adamlarla ünsiyyətdə olmağı öyrənirlər. Bunun üçün dərslərdə cütlərlə və qrup halında işlər təşkil olunur, tədqiqat layihələri, rollu oyunlar tətbiq edilir, sənədlərlə və müxtəlif informasiya mənbələri ilə iş aparılır, yaradıcı işlərdən istifadə olunur. Tələbə tədris prosesinin tamhüquqlu üzvünə çevrilir, onun təcrübəsi təlim biliyinin əsas mənbəyi kimi çıxış edir. Pedaqoq yeni biliklər vermir, lakin iştirakçılarda müstəqil axtarışlara həvəs oyadır və işdə köməkçi funksiyasını yerinə yetirir.

Hər şeydən əvvəl, dərslərin keçirilməsinin interaktiv formaları:

— öyrədilənlərdə maraq oyadır;
— tədris prosesində hər kəsin fəal iştirakını həvəsləndirir;
— hər bir təhsilalanın hisslərinə yönəlir (xitab edir);
— tədris materialının səmərəli şəkildə mənimsənilməsinə yardım edir;
— təhsilalanlara çoxplanlı təsir göstərir;
— əks əlaqəni yerinə yetirir (auditoriyanın cavab reaksiyası);
— təhsialanlarda fikir və münasibətlər formalaşdırır;
— həyati vərdişlər formalaşdırır;
— davranışın dəyişməsinə yardım edir [1].

İnteraktiv təhsil texnologiyalarının istifadəsi ilə təlim təhsil prosesinin adət halını almış məntiqindən fərqli olan məntiqi nəzərdə tutur: nəzəriyyədən təcrübəyə deyil, yeni təcrübənin formalaşdırılmasından onun tətbiq edilməsi vasitəsilə nəzəri olaraq dərk edilməsinə doğru.

T.S.Panina və L.N.Vavilova interaktiv təlimin aşağıdakı ümumi nəticələrini və təsirlərini fərqləndirirlər:

1. İnteraktiv təlim metodları dərketmə prosesini intensivləşdirməyə, bilikləri mənimsəməyə və praktik tapşırıqların həlli zamanı yaradıcı şəkildə tətbiq etməyə imkan verir.

Bu işin səmərəliliyi öyrədilənlərin aktiv surətdə bu prosesə həm cəlb edilməsinə, həm də bilavasitə ("burada və indi") biliklərdən istifadə etmək hesabına təmin edilir. Əgər interaktiv təlim metodları müntəzəm şəkildə tətbiq olunarsa, öyrədilənlərdə informasiyanın əldə edilməsinə məhsuldar yanaşma formalaşır, düzgün olmayan mülahizələri söyləmək qorxusu aradan qalxır (belə ki, səhv mənfi qiymətləndirməyə səbəb olmur) və müəllimlə etibarlı münasibətlər yaradır.

2. İnteraktiv təlim müzakirə olunan problemlərin həlli üçün iştirakçıların motivasiyasını və məsələnin həllinə fəal müdaxiləsini yüksəldir ki, bu da onların daha sonra axtarışa fəal qoşulmasına emosional təkan verir, onları konkret hərəkətlərə ruhlandırır, təlim prosesi daha da anlaşıqlı olur.

3. İnteraktiv təlim qeyri-adi formada düşünmək qabiliyyətini formalaşdırır, problemli situasiyanı özünəməxsus şəkildə görməyə və ondan çıxış yollarını tapmağa imkan verir, öz mövqeyini və həyati dəyərlərini əsaslandırmağa şərait yaradır, fərqli fikirləri dinləmək,

əməkdaşlıq etmək bacarığı, yoldaşlıq münasibətləri qurmaq, bu zaman opponentləri ilə münasibətlərdə tolerantlıq və mehribanlıq nümayiş etdirmək kimi xüsusiyyətləri inkişaf etdirir.

4. İnteraktiv təlim metodları fəaliyyətin təşkili üsullarının ötürülməsinə, fəaliyyətin, onun təşkilinin, münasibətlərin, təəssüratların yeni təcrübəsini əldə etməyə imkan verir. İnteraktiv fəaliyyət təkcə biliklərin, bacarıqların, vərdişlərin, fəaliyyət üsulları və kommunikasiyaların artmasını deyil, həm də öyrədilənlərin yeni imkanlarının aşkara çıxarılmasını təmin edir və tədris prosesi iştirakçılarının təcrübə toplanması, dəyərlərin dərk edilməsi və qəbul edilməsi üçün fərdi və kollektiv fəaliyyətin düşünülərək yaşanmasına cəlb edilməsi yolu ilə səriştəliliyin yaradılması və təkmilləşdirilməsi üçün zəruri şərt hesab edilir.

5. İnteraktiv təlim texnologiyalarından istifadə etmək biliklərin mənimsənilməsi və qazanılmış biliklərin tətbiq edilməsi bacarığına nəzarət etməyə, bilik və vərdişlərin müxtəlif situasiyalarda daha çevik və humanist olmasına imkan verir.

6. Konkret təhsil alan üçün nəticə:

— tədrisin məzmunu tədris mühiti ilə qarşılıqlı əlaqədə aktiv mənimsənilməsi təcrübəsi;

— tədris zamanı qarşılıqlı əlaqələrin, təəssüratların yeni təcrübəsinin mənimsənilməsi;

— tolerantlığın inkişaf etdirilməsi.

7. Tədris mikroqrupu üçün nəticə:

— kiçik qrupda ünsiyyət vərdişlərinin və qarşılıqlı təsirin inkişaf etdirilməsi;

— qrupun dəyərlər-oriyentasiya vəhdətinin formalaşdırılması;

— situasiyadan asılı olaraq sosial rolların çevik dəyişilməsinə həvəsləndirmə;

— birgə fəaliyyətin əxlaqi norma və qaydalarının qəbul edilməsi;

— qrup şəklində refleksiyalar prosesində analiz və özünüanaliz vərdişlərinin inkişaf etdirilməsi;

— konfliktləri həlletmə və güzəşt etmək qabiliyyətlərinin inkişaf etdirilməsi.

8. "Müəllim-qrup" sistemi üçün nəticə:

— tədris prosesinin təşkilinə qeyri-standart münasibət;

— tədris materialının çoxtərəfli öyrənilməsi;

— yalnız tədris münasibətləri deyil, tədrisdənkənar situasiyalarda da şəxsiyyətlərarası qarşılıqlı təsirə motivasiyalı hazırlığın formalaşdırılması.

Hal-hazırda kifayət qədər çox sayda interaktiv texnologiyalar işlənib hazırlanmışdır. Bunların sırasında aşağıdakıları qeyd etmək olar: Cütlərlə və ya üçlüklərlə iş texnologiyası, "Akvarium" texnologiyası, "Braun hərəkəti" texnologiyası, "Qərarlar ağacı" texnologiyası, "Karusel" texnologiyası, "Beyin hücumu" texnologiyası və s. Bütün bunlar təkcə biliklərin müəyyən həcmini verməyə deyil, həm də tələbələr arasında emosional kontaktların qurulmasına, kommunikasiya bacarıq və vərdişlərinin inkişaf etdirilməsinə yardım edir; tələbələri zəruri informasiya ilə təmin edir ki, bunsuz birgə fəaliyyəti həyata keçirmək mümkün deyil; komanda şəklində işləməyə, başqalarının fikirlərini dinləməyi öyrədir.

Peşəkar səriştəliliyin formalaşdırılmasına özünütəqdimat texnologiyası da yardım edir. Özünütəqdimat texnologiyasının mahiyyəti xüsusi vasitələrin köməyi ilə dinləyənin şüuruna mühüm və zəruri informasiyanı çatdırmaq, öz mövqeyini, fikrini, nöqteyi-nəzərini əsaslandırılmış şəkildə ifadə etməkdən ibarətdir. Özünütəqdimat texnologiyasından istifadə edilməsi gələcək mütəxəssisin kütlə qarşısındakı çıxışlara və işə düzəlmə zamanı müsabiqədən keçmə mərhələsində özü barədə mətnin yazılmasına hazırlığı zərurəti ilə müəyyən edilir. Bununla əlaqədar, onun ali təhsil praktikasına tətbiq edilməsi tələbələrə aşağıdakı hallarda kömək etməlidir:

— təqdimatın qurulmasının ümumi və spesifik prinsiplərinin öyrənilməsi;
— çıxış üçün materialların hazırlanması alqoritminin mənimsənilməsi;
— informasiyanın səmərəli şəkildə ifadə edilməsi vasitələri və üsullarının düzgün müəyyən edilməsi;
— kütləvi məlumatın üstünlükləri, incə çalarları və çətinliyinin müəyyən edilməsi;
— təqdimat üçün hazırlanmış materialların keyfiyyətinin analizi.

Məqsədi müəllif mövqeyini çatdırmaq olan kütlə qarşısında çıxışları üç növə ayırmaq olar: təqdimatın son nəticəsinə görə, şəxsi maraq dərəcəsinə görə, məlumatın əhatəliliyinə görə.

Son nəticəsinə görə informasiya verən (icmal xarakteri daşıyır) və hərəkətverici (məlumatın, üstünlüyün və məziyyətin qazanclı cəhətlərinə diqqəti cəlb etdirir) təqdimatları fərqləndirirlər.

Şəxsi maraq səviyyəsinə görə şəxsi və ictimai təqdimatlar mövcuddur. İctimai təqdimatlar kollektiv fikirlərlə əlaqəsi olan faktların şərh edilməsini nəzərdə tutur.

Məlumatların əhatəliliyinə görə təqdimatlar ümumi və diskret ola bilər. Ümumi təqdimatlar məlumatların hərtərəfli olması və rəngarəng olması ilə fərqlənir, ona görə ki, müzakirə predmeti barədə tam təsəvvürün formalaşdırılmasına yönəlmiş olur. Diskret təqdimatlar məsələnin yalnız bir hissəsini, tələbə qarşısında qoyulmuş konkret məqsədin əldə olunmasına yönəldilmiş hissəsini işıqlandırır.

Özünütəqdimatda tələb olunan ən ümumi hallar şifahi və yazılı təqdimatlardır.

Yadda saxlamaq lazımdır ki, yazılı təqdimatlara təkcə "həyat təsvirləri" (xülasələr) deyil, həm də auditoriyaya təqdim olunan istənilən sənədlər: hesabatlar, tezislər, məruzələr, bildirişlər, məktublar və s. aiddir. Bu sənədlərin hazırlanması məhdud zaman müddətində informasiyanı fokusa yığmağa, əsas fikirlərin ən yaxşı şəkildə sıralanmasına nail olmağa və auditoriya ilə qarşılıqlı anlaşma üçün arqumentlərin seçilməsinə imkan verən müəyyən vərdişlər tələb edir.

Təqdimatlar özündə iki mühüm cəhəti: məzmun və realizasiya prosesini ehtiva edir. Ümumilikdə onlar nəticəni – qarşıya qoyulmuş məqsədin əldə olunması keyfiyyətini müəyyən edir. Onların hər biri ayrı-ayrılıqda kütlə qarşısında çıxışın hazırlıq texnologiyası və praktikada həyata keçirilməsidir.

İnteraktiv texnologiyalar informasiya texnologiyaları, məsafədən (distant) təhsil, İnternet resurslarından istifadə etməklə təhsil, eyni zamanda elektron dərsliklər və sorğu kitabları, elektron dəftərlər, onlayn rejimində iş və s. ilə sıx əlaqəlidir. Müasir kompüter telekommunikasiyalarının inkişaf səviyyəsi iştirakçılara real partnyorla interaktiv dialoqa (yazılı və şifahi) girməyə imkan verir, eyni zamanda real zaman rejimində istifadəçi və informasiya sistemi arasında fəal məlumat mübadiləsinə şərait yaradır.

Video konfrans formasında interaktiv məşğələlər tədris prosesi iştirakçılarının qarşılıqlı fəaliyyəti üçün yeni imkanlar yaradır. Video konfrans elə texnologiyadır ki, burada təhsil prosesinin bütün subyektləri üçün bir-birini görmək və eşitmək, məlumat mübadiləsi etmək, məlumatları hamıya əlçatan olan kompüterin imkanlarından istifadə edərək və məsafədən ünsiyyəti real canlı ünsiyyətə maksimum yaxınlaşdıraraq interaktiv rejimdə birgə emal etmək imkanları yaradılır.

Video konfransın hazırlanması və həyata keçirilməsi onun keçirilməsi məqsədindən, ünvanlandığı auditoriyadan asılıdır. Video konfransın uğurlu təşkili üçün texniki, təşkilati və məzmun cəhətləri nəzərə alınmalıdır. Bununla yanaşı, tədris prosesinin video konfrans formasında təşkili müəllimin psixoloji-pedaqoji, metodiki hazırlığına onun informasiya mədəniyyəti səviyyəsinə əlavə tələblər irəli sürür. Video konfrans şəraitində həyata keçirilən

interaktiv dialoq pedaqoji fəaliyyətin didaktik, informasiya, metodiki və texnoloji imkanlarını əhəmiyyətli dərəcədə artıraraq, onun keyfiyyətcə yeni səviyyəsinə keçidi təmin etməyə imkan verir.

Beləliklə, interaktiv təlim metodlarının tətbiqi müasir ali təhsil müəssisəsində tələbələrin hazırlığının təkmilləşdirilməsinin ən mühüm istiqamətlərindən biri və səriştəli yanaşmanın effektiv reallaşdırılmasının mütləq şərtidir.

**Məqalənin aktuallığı.** Ali təhsil müəssisələrində interaktiv metodlardan istifadə mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Tələbələrin hazırlığının təkmilləşdirilməsi üçün innovasiyalardan maksimal şəkildə istifadə bu mövzunun aktuallığına diqqət çəkir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə məşğələlərin keçirilməsinin interaktiv forma və metodları, tətbiqi xüsusiyyətləri, interaktiv təlimin ümumi nəticələri və təsirləri araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Müəllimlərin peşəkar səriştəliyinin inkişafında və təkmilləşməsində mühüm istiqamət olaraq istifadə edilə bilər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004), Bakı: Çaşıoğlu, 2005.

2. В.С.Кукушкин. Теория и методика обучения. Ростов н//Д: Феникс, 2005.

3. Т.С.Панина, Л.Н.Вавилова. Современные способы активизации обучения. М: Академия, 2008.

**А. Джабиева**

## Интерактивные методы обучения в вузе как педагогическая инновация

## Резюме

В статье рассматриваются интерактивные формы и методы проведения занятий, особенности их применения, общие результаты и эффекты интерактивного обучения.

**A. Djabiyeva**

## Interactive educative methods in institutions of higher education as pedagogical innovation

## Summary

The authors views the interactive forms and methods of training, the peculiarities of their use, outcomes and effects of interactive education

**Redaksiyaya daxil olub:** 07.11.2018